# QARABAĞIN SU EHTİYATLARI VƏ POTENSİALI

**Kənan Musayev**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

İşğaldan azad olunmuş ərazilərdə yerləşən təbii ehtiyatlardan səmərəli istifadə edilməsi dövlətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ölkənin sənaye və kənd təsərrüfatı sahələri üçün mühüm əhəmiyyət kəsb edən su resurslarından səmərəli istifadə edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 15 aprel 2020-ci il tarixində yaradılmış Dövlət Komissiyası fəaliyyət göstərir.

İşğaldan azad olunmuş ərazilərdə əhəmiyyətli su anbarlarından biri 1976-cı ildə Tərtər çayı üzərində inşa edilən, ümumi sututmu 560 milyon kubmetr, bəndinin hündürlüyü isə 125 metr olan Sərsəng su anbarıdır. Su anbarında təmir və bərpa işləri aparılarsa, onun fəaliyyəti nəticəsində Tərtər, Ağdam, Goranboy, Yevlax və Ağcabədi rayonlarının 100 min hektara yaxın torpaq sahələrinin suvarma suyu ilə təminatı mümkün olacaqdır. Sərsəng su anbarı ilə yanaşı, ümumi sututumu 80 milyon kubmetr olan digər kiçik su anbarları ümumi su ehtiyatlarının tərkibinə qatılarsa, kənd təsərrüfatı sahəsində əhəmiyyətli irəliləyişə nail olmaq mümkündür.

Bununla yanaşı, torpaqlarımızın işğaldan azad olunması, bu regionda yerləşən Sərsəng və Xudafərin su elektrik stansiyalarının (SES) potensialı ətraf rayonların elektrik enerjisinə olan tələbatının yaxşılaşdırılmasına, digər enerji mənbələrinin üzərinə düşən yüklərin azalmasına və bərpa olunan enerji mənbələrinin ümumi istehsalatda payının artmasına şəarait yaradacaqdır.

Azad olunmuş ərazilərdə yerləşən müxtəlif tərkibli müalicəvi mineral bulaqlar su ehtiyatlarının əhəmiyyətli hissəsini təşkil edir. Bu torpaqlarda 120-dək mineral su yataqları vardır ki, bu da öz növbəsində 7805 $m^3$/gün su təhcizatı deməkdir. Kəlbəcər rayonu ərazisində yerləşən "İstisu" mineral bulağı uzun illər düşmən tərəfindən xarici bazarlarda saxta adla satışa çıxarılırdı. Əlverişli kimyəvi tərkibə və yüksək temperatura malik su ehtiyatlarının işğaldan azad olunması, o cümlədən regionun təbii şəraiti bu ərazilərə yerli və xarici investorların cəlb edilməsinə şərait yaradacaq, iqtisadi potenisalın artmasına və "2019-2023-cü illər üzrə Regionların İnkişafı Dövlət Proqramı"na uyğun olaraq, investisya siyasətinə öz töhfəsini verəcəkdir.

Münbit torpaqlarına, gözəl təbiətinə və mülayim iqliminə görə seçilən Qarabağ regionu əlverişli rekreasiya potensialına malikdir. Regionda müasir otellərin və sağlamlıq mərkəzlərinin tikilməsi, tarixi abidələrin mövcudluğu turistlərin diqqət mərkəzinə çevriləcəkdir.

Digər tərəfdən, mineral su ehtiyatları içki sənayesində emal prosesinin güclənməsində, turizm və rekreasiya imkanlarının artmasında mühüm rol oynayacaqdır.

Su ehtiyatlarından düzgün istifadə prosesinin uğurla həyata keçirilməsi və səmərəli innovasiya siyasəti kənd təsərrüfatının inkişafına, neft sektorundan asılılığın azalmasına, o cümlədən, qeyri-neft sektorunun inkişafına, yeyinti sənayesində yeni güclərin yaranmasına və etibarlı təchizat bazasının formalaşmasına xidmət göstərəcəkdir.